AZƏRBAYCAN ORDUSU

*İmadəddin Nəsimi - 650*

# Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi qüdrətli söz ustası

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə 2019-cu ili "Nəsimi ili" elan edərək, şairin yubileyinin dövlət səviyyəsində geniş qeyd edilməsi haqqında fərman imzalayıb.*



"Nəsimi ili" Müdafiə Nazirliyi sistemində də silsilə tədbirlərlə geniş şəkildə qeyd edilir. Oktyabrın 5-də Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində qurumun təşkilatçılığı və İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin tərəfdaşlığı ilə dahi Azərbaycan şairi İmadın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil etdiyini bildirdilər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov tədbirdə iştirak edən kəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və beynəlxalq miqyasda qeyd olunmuşdur. Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılmışdır. Ulu



dəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş "Laməkan şairimiz" adlı ədəbi-bədii tədbir keçirildi. Tədbirdə çıxış edənlər İmadəddin Nəsiminin Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından olduğunu vurğuladılar. Qeyd olundu ki, Nəsimi Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaratmışdır. Həmçinin mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin ay- qonaqları salamlayaraq İmadəddin Nəsimi adının həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşərək, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşadığını bildirdi. "Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının gör- Öndər siyasətinin layiqli davamçısı ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin 2019-cu ili "Nəsimi ili" elan etməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsidir. Nəsimi yaradıcılığı bizim milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir."

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri Samir Adıgözəlov Nəsimi əsərlərinin dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutduğunu qeyd etdi. "Nəsimi əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Belə dəyərli və yaddaqalan tədbiri H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivi ilə birgə keçirməkdən çox şadıq. Tədbirin ərsəyə gəlməsində zəhmət çəkən hər kəsə dərin minnətdarlığımı bildirirəm."

Tədbirdə İmadəddin Nəsimiyə həsr olunmuş film göstərildi. Sabunçu rayon 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinin gəncləri "Nəsimi və Dərvişlər" adlı tamaşa nümayiş etdirdilər.

3 saylı Xüsusi İnternat Məktəbinin şagirdlərinin Nəsimi yaradıcılığının incilərini tamaşaçılara "işarət dili" ilə çatdırması böyük rəğbət və alqışlarla qarşılandı. Tədbirin sonunda H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında Nəsimi yaradıcılığına həsr olunmuş mahnılar səsləndirildi.

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu"**